DOI: https://doi.org/10.36719/2663-4619/118/51-54

**Gülnar Rasulova**
Cəmşid Naxçıvanski adına Hərbi Lisey
https://orcid.org/0009-0002-6524-4578
gulnar.rasulova07@mail.ru

# Hərbi təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsi və onun tədris prosesi ilə əlaqəsi

**Xülasə**

Bu məqalədə tərbiyə anlayışı haqqında, vətənpərvərlik tərbiyəsi haqqında məlumat vermək məqsəd kimi qarşıya qpyulmuşdur. Vətənpərvərlik tərbiyəsi və onun tədris prosesi ilə əlaqəsini açıqlamaq məqalənin əsas vəzifəsidir.

Vətənpərvərlik tərbiyəsinin hər bir Azərbaycan gəncinə aşılanması vacib olan mühüm vəzifədir. Vətənpərvərlik tərbiyəsi tədris prosesi ilə sıx bağlıdır. Burada müəllimlərin öhdəsinə çox vacib iş düşür. Xüsusən də tarix, ana dili, ədəbiyyat fənn müəllimləri bu tərbiyənin aşılanmasında daha çox iş görə bilər. Onlar tarixi keçmişimizi, Azərbaycan xalqının qəhrəmanlıqlarının, şəhidlik kimi bir zirvənin aliliyini, milli-mənəvi dəyərlərə bağlılığı, dilimizə sevgi və hörməti gənclərimizə birmənalı şəkildə mənimsətməlidirlər. Onlara "Vətən bizim üçün nə edib sualınının yerinə biz vətən üçün nə etmişik" sualını verməyi öyrətməlidirlər.

Vətənpərvərlik tərbiyəsi hərbi məktəblərdə təhsil alanlar üçün xüsusi önəm kəsb edir. Hərbi təhsil sadəcə silahlardan, döyüş texnikalarından istifadə etməyi, döyüş taktikalarını öyrətməklə kifayətlənmir, eyni zamanda gənc hərbçilərdə vətənpərvərlik kimi ali keyfiyyət formalaşdırır. Vətənin gələcəyi əmanət olunacaq gənclər üçün bu keyfiyyətin rolu danılmazdır. Hərbçi olmaq sadəcə əldə silah sərhədləri qorumaq yox, dövlətin, xalqın hər bir milli-mənəvi sərvətinə, dilinə, atributlatına hörmətlə yanaşmağı bacarmaq, sahib çıxmaq, onu qorumaqdır.

***Açar sözlər:*** *tərbiyə, vətən, vətənpərvərlik, pedoqoji proses, hərbi təhsilalan*

**Gulnar Rasulova**
Jamshid Nakhchivansky Military Lyceum
https://orcid.org/0009-0002-6524-4578
gulnar.rasulova07@mail.ru

# Patriotic Upbringing in Military Educational Institutions and its Relationship with the Educational Process

**Abstract**

This article aims to provide information about the concept of upbringing and more specifically, patriotic education. The main objective of the article is to explain the essence of patriotic education and its connection with the educational process.

Instilling patriotic values in every young Azerbaijani is a vital and essential task. Patriotic education is closely linked to the teaching process, placing significant responsibility on educators. In particular, teachers of history, native language, and literature can play a pivotal role in fostering patriotism. They must help students internalize the importance of our historical heritage, the heroism of the Azerbaijani people, the sacredness of martyrdom, commitment to national and moral values, and love and respect for our language. Teachers should encourage students not to ask what the country has done for them, but rather what they have done for their country.

Patriotic education is of particular importance for students in military schools. Military education does not solely consist of learning how to use weapons and military equipment or mastering combat tactics; it also plays a crucial role in shaping patriotism as a noble quality in young soldiers.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

For youth who will bear the responsibility for the nation's future, the significance of this value is undeniable. Being a soldier is not only about protecting borders with weapons - it also requires respecting, preserving, and taking ownership of the nation's cultural, linguistic, and symbolic heritage.

***Keywords:*** *upbringing, homeland, patriotism, pedagogical process, military education*

## Giriş

Tərbiyə daim hərəkətdə olan, eyni zamanda idarə edilən mürəkkəb bir anlayışdır. Cəmiyyət yarandığı gündən bu günə qədər hər dövrün özünəməxsus xüsusiyyətləri olduğu kimi tərbiyə üsulları da olmuşdur. Tərbiyə işi həmişə öz aktuallığını qoruyub saxlayan məsələlərdəndir. Tərbiyə işi cəmiyyətdə mövcud olan hər cür çatışmazlıqlara, qeyri-insani hadisələrə qarşı birgə, məqsədyönlü, sistemli və səmərəli şəkildə həyata keçirilməlidir. Bu proses geniş və kompleks tədbirlərdən ibarətdir. Tərbiyə anlayışı geniş anlayışdır və bir çox sahələri əhatə edir. Bura əxlaq tərbiyəsini, ailə tərbiyəsini, sosial, mədəni, vətənpərvərlik tərbiyəsi və s. tərbiyəni aid etmək olar. Bunların hər biri də ayrı-ayrı öyrənilməli olan tərbiyə sahələridir (Həsənova, 2013).

Vətənpərvərlik insanın öz vətəninə, xalqına və dövlətinə sadiq olması, onun mənəvi-mədəni dəyərlərini qoruyub yaşatmaq istəyi ilə bağlı olan yüksək mənəvi keyfiyyətdir. Hərbi təhsil müəssisələri bu dəyərlərin ən mühüm aşılanma mühitlərindən biridir. Gənc hərbiçilərin Vətən qarşısında borc və məsuliyyət hissini dərk etməsi, dövlətçiliyə sədaqət ruhunda yetişməsi vətənpərvərlik tərbiyəsinin məqsədini təşkil edir (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2020).

**Tədqiqat**

Vətənpərvərlik çox dərin, güclü insani hiss olduğuna görə gənclərin belə bir müqəddəs ruhda tərbiyəsi məqsədyönlü, planlı, mütəşəkkil aparılmalıdır. Ulu Öndər Heydər Əliyev gənclərimizin I Forumundakı proqram çıxışında demişdir: “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır. Bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidirlər, keçmişi yaxşı bilməlidirlər, milli dəyərlərimizi yaxşı bilməlidirlər (Təhsil Nazirliyi, 2021). Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur... Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik”. Məmmədov, Y. (tərtibçi). (2012). *Kursantların Hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin tədrisi metodikası.* Bakı. Elə vətənpərvərlik tərbiyəsinin əsas məqsədi də gəncliyi öz ölkəsinə, onun tarixinə, mədəniyyətinə və dəyərlərinə sevgi ilə böyütməkdir. Hərbi məktəblərdə bu tərbiyə sistematik şəkildə həyata keçirilir. Vətənpərvərlik tərbiyəsi yalnız hərbi yönümlü tədbirlərlə məhdudlaşmır, birbaşa tədris prosesi ilə inteqrasiya olunur. “Vətən” və “vətənpərvərlik” anlayışları mücərrəd məfhum olduğu üçün onların mənasının dərk olunmasında müəllimlərin rolu böyük olmalıdır. Bu sahədə ən çox da iş tarix, ana dili və ədəbiyyat müəllimlərinin öhdəsinə düşür. Xüsusilə, tarix dərslərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizələr, Qarabağ savaşları, qəhrəman şəhidlərin həyat yolu geniş şəkildə tədris edilməlidir (Həsənova, 2011). Hər bir kursant mənsub olduğu xalqın tarixini, keçmişini öyrənməli, qəhrəmanlıq nümunələri əsasında tərbiyə olunmalıdır. Vətənpərvərlik tərbiyəsinin nəticəsi olan şəhidlik zirvəsinin ucalığı, aliliyi Vətənin müstəqilliyi, sərhədlərin toxunulmazlığı naminə canlarını fəda edən şəhidlərimizin timsalında, onların keçdikləri həyat yolu ilə yaxından tanışlıqla çatdırılmalıdır (Əhmədov, Əliyev, 2006).

Azərbaycan dili və ədəbiyyat dərslərində vətənə məhəbbət mövzulu əsərlər təhlil olunmalı, kursantlar bu əsərlər vasitəsilə emosional və mənəvi bağlılıq hissi qazanmalıdırlar. Ulu dastanımız “Kitabi-Dədə Qorqud”dan üzü bəri Azərbaycan bədii, fəlsəfi, psixoloji fikrin korifeyləri mənəvi keyfiyyətlərdən bəhs edərkən, kamil insana məxsus nəcib sifətlərdən danışarkən həmişə vətənpərvərlik hissinin roluna yüksək qiymət vermişlər. Həmçinin ana dilinə məhəbbət aşılanmalı, dilimizin incəlikləri mükəmməl öyrədilməlidir. Ana dilinə məhəbbət vətənpərvərlik tərbiyəsində böyük rol oynayır (Əliyev, 2019).

Beləliklə, müəllimlər vəzifələrini icra edərkən, hərbi təhsilalanlara müasir hərbi strategiyalar, döyüş taktikaları və psixologiyaları öyrətməklə yanaşı, eyni zamanda onlara vətənpərvərlik əhval-

ruhiyyəsini aşılayırlar. Bu iki istiqamətin birləşməsi, yalnız peşəkar mütəxəssislərin yetişdirilməsi ilə deyil, həm də gənclərin milli ideallar uğrunda mübarizəyə hazır olmaları ilə nəticələnir. Ulu öndər Heydər Əliyevin dediyi kimi cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır. Vətənpərvər, Vətənini sevən, dövlət atributlarına hörmətlə yanaşan, onu qoruyan hər zaman üçrəngli bayrağımızı uca tutan nəsillərin yetişdirməyin yolu vətənpərvərlik tərbiyəsinin verilməsindən keçir (İsmayılov, 2014).

Vətənimiz gələcəyi bu gün hərbi tədris müəssisələrində təhsil alan gənclərimizin düşüncə tərzi, intellektual səviyyəsi, milli ruhda tərbiyə alması kimi amillərdən asılıdır. Bu baxımdan hərbi məktəblərdə vətənpərvərlik tərbiyəsi xüsusi önəm kəsb edir. Milli-mənəvi dəyərlərə əsaslanan və kursantlara vətənə, xalqa, dövlətə sədaqət hissini formalaşdıran vətənpərvərlik tərbiyəsi məqsədyönlü pedoqoji proses əsasında qurulmalıdır. Bu tərbiyənin əsas hədəfi gənclərin milli kimliyini möhkəmləndirmək, onlarda vətən üçün fədakarlıq ruhunu aşılamaq və dövləti yalnız sərhəd olaraq deyil, hərtərfəli – milli-mənəvi sərvətlərini də qorumağa hazır şəxslər yetişdirməkdir (Məmmədov, 2018). Məhz buna görə də bu gün hər bir vətənpərvər gəncin yetişdirilməsi, yalnız milli təhlükəsizliyin deyil, həm də cəmiyyətin sosial, mədəni və iqtisadi inkişafının təmin edilməsi üçün əhəmiyyətlidir. Hərbi məktəblərdə verilən vətənpərvərlik tərbiyəsi kursantlarda milli dəyərlərə bağlılığını artırmaqla yanaşı, onlara müsbət şəxsi keyfiyyətlər aşılayır (Kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin tədrisi metodikası, 2012).

Tədris proqramlarında vətənpərvərlik mövzusunun yer alması gənclərdə müstəqillik və azadlığa olan sevgini gücləndirir. Bu çərçivədə, tarixi hadisələr, müstəqillik mübarizəsi, eləcə də ölkənin suverenliyi uğrunda baş verən döyüşlər haqqında məlumatların verilməsi, kursantların öz milli kimliklərini daha dərindən anlamalarına yardımçı olur. Eyni zamanda, bu biliklər onların gələcəkdəki döyüş hazırlıqlarına və vəzifələrini yerinə yetirmələrinə köklü təsir göstərir (Müdafiə Nazirliyi, 2022).

Tədrislə yanaşı, dərsdənkənar tədbirlər vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Şəhidlər xiyabanına və muzeylərə ekskursiyalar, milli qəhrəmanların anım tədbirləri, Vətən müharibəsi qaziləri ilə görüşlər, vətənpərvərlik mövzusunda yazı və inşa müsabiqələri kursantlarda emosional təsir yaradır və vətən sevgisini əsaslı şəkildə gücləndirir. Həmçinin hərbi-idman yarışları, marşlar və andiçmə mərasimləri vətənpərvərlik tərbiyəsini gücləndirən mühüm vasitələrdir (Qaralov, 2014).

Hərbi məktəblərdə vətənpərvərlik tərbiyəsinin həyata keçirmək üçün istifadə olunan digər vasitə sosial fəaliyyətlərdə iştirak və təlimlərin təşkilidir. Məsələn, idman yarışları, xüsusi günlərə həsr olunmuş tədbirlər, əsgəri marafonlar kimi fəaliyyətlər, gənclərin birgə vətən sevgisini artıraraq dostluq bağlarını gücləndirir. Beləliklə, milli birlik və bərabərlik hissi inkişaf etmiş olur (Şəxsi heyətlə iş üzrə zabitlər üçün rəhbəredici sənədlər, tərbiyə işinin təşkili və hərbi intizamin möhkəmləndirilməsinə dair metodiki tövsiyələr toplusu, 2015).

Gənclər üçün müəllim və komandirlər nümunəvi şəxsiyyətlərdir. Onların davranışları, nitqləri və münasibətləri gənc hərbçilərə birbaşa təsir göstərir. Ona görə də vətənpərvərlik tərbiyəsinin uğuru müəllim, komandir və tərbiyəçilərin bu dəyərlərə özləri necə əməl etməsindən də çox asılıdır (Şəxsiyyətin mənəvi tərbiyəsi: Metodik vəsait, 2007).

## Nəticə

Beləliklə, hərbi məktəblərdə vətənpərvərlik tərbiyəsi, yalnız hərbi biliklərin öyrədilməsi ilə məhdudlaşmır. Əminliklə deyə bilərik ki, hərbi məktəblərdə vətənpərvərlik tərbiyəsi gənc hərbçilərin formalaşmasında həlledici rol oynayır. Bu tərbiyə tədris prosesi ilə sıx bağlı şəkildə aparıldıqda daha effektiv nəticə verir. Dövlətçilik dəyərlərinə bağlı, milli kimliyinə hörmətlə yanaşan, Vətən üçün canından keçməyə hazır gənclərin yetişdirilməsi yalnız güclü və sistemli vətənpərvərlik tərbiyəsi ilə mümkündür. Bu, gəncləri bir fərd olaraq ruhlandıran, onları öz dəyərləri ilə birləşdirən bir prosesdir. Hərbi məktəblərdə verilən bu tərbiyənin müsbət təsiri, gələcəyin güclü və vətənpərvər nəsillərinin yetişməsində mühüm rol oynayır. Bu baxımdan, hərbi təhsildə bu istiqamət prioritet olaraq daim diqqət mərkəzində saxlanılmalıdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2020). *Orta ixtisas və hərbi təhsil müəssisələrində vətənpərvərlik tərbiyəsi üzrə metodik tövsiyə*.
2. Əhmədov, H., & Əliyev, P. (2006). *Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi*.
3. Əliyev, R. (2019). *Gənclərin mənəvi tərbiyəsi*. Elm və Təhsil.
4. Həsənova, L. (2013). *Ədəbiyyat dərslərində tədqiqatçılıq və vətənpərvərlik*. Mütərcim.
5. Həsənova, P. (2011). *"Kitabi-Dədə Qorqud" dastanının mənəvi tərbiyə məsələləri* (Dissertasiya işi).
6. İsmayılov, R. (2014). *Hərbi psixologiya və pedaqogika. I hissə*.
7. Kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin tədrisi metodikası. (2012).
8. Məmmədov, İ. (2018). *Vətənə bağlılıq və milli şüur*. Maarif Nəşriyyatı.
9. Müdafiə Nazirliyi. (2022). *2022-ci il üzrə fəaliyyət hesabatı*. https://www.mod.gov.az
10. Qaralov, Z. (2014). *Tərbiyə. I hissə*.
11. Şəxsi heyətlə iş üzrə zabitlər üçün rəhbəredici sənədlər, tərbiyə işinin təşkili və hərbi intizamin möhkəmləndirilməsinə dair metodiki tövsiyələr toplusu. (2015).
12. Şəxsiyyətin mənəvi tərbiyəsi: Metodik vəsait. (2007).
13. Təhsil Nazirliyi. (2021). *Tədris planında vətənpərvərlik komponentinin tətbiqi qaydaları*. Rəsmi sənəd.

Daxil oldu: 08.02.2025
Qəbul edildi: 12.05.2025